İnsan təbiəti özünün daxili-mənəvi mühitindəki ziddiyyətlərin toqquşması və mübarizəsi ilə formalaşır. Əlbəttə, söhbət təkcə üstün keyfiyyətlərə malik olmaq, mənəvi ucalıq mərtəbəsinə yetmək baxımından getmir. Axı məsələnin əks tərəfi də var. İnsan öz içindəki ziddiyyətlərin çarpışmasında məğlub olursa, mənəvi iflas girdabına da düşə bilər.

Professor Qulu Məhərrəmli təcrübəli publisist kimi həyatı bütün əlvanlığı ilə müşahidə altına ala bilir. Təbii ki, əlvan rənglərin cazibəsi onu nə qədər çəkirsə, qara rənglə görünən neqativ zona da onu bir o qədər təəssüfləndirir. Bir vaxt Amerika yazıçısı Ayzek Azimova (o əslən türkdür, 1902-ci ildə Belarusiyanın Tatarinovo kəndində anadan olub) sual verirlər ki, sən dünyanı gəzməmisən, amma bütövlükdə Yer kürəsini ən yaxşı tanıyan yazıçı kimi yazırsan. Bunun səbəbi nədir? O cavab verir ki, mən makinanın pultu arxasına əyləşəndə dünyanı bütün əlvanlığı ilə görürəm. Əlbəttə, bu yazıçının özünəxas cavabıdır. Ancaq dünyanı makinanın pultu arxasından bütün əlvanlığı ilə görmək üçün gərək yüksək səviyyədə elmi poetinsialın olsun. İstedad da şərtdir, qanadlanan xəyal, ilhamlı yaradıcılıq enerjisi... bütün bunlar birləşəndə fenomen yaranır.

Müəllif vaxtı ilə Rusiya qəzetlərindən oxuduğu bir yazını da yada salır: *"Vəzifə ən yaxşı əmtəədir"* adlı həmin məqalədə Rusiyanı çürüdən, içəridən dağıdıb məhv edən neqativlər sadalanır. Şübhəsiz, Qulu Məhərrəmli bu məqaləni boşuna yada salmır, həmin məqalədə göstərilənlərlə Azərbaycandakı anoloji halların mövcudluğuna diqqəti yönəltməkdir müəllifin məqsədi.

Müəllifin publisistik təhkiyyəsində həqiqətlər çılpaqlığı ilə üzə çıxır. Doğrudur, çılpaqlıq həmişə rəğbət yaratmır. Amma Qulu Məhərrəmli özünü ifadə imkanları ilə bu çılpaqlığı oxucuya yedirə bilir: *"Vəzifə taxtına çıxanların çoxu "vicdanlı və dürüst olmaq" həqiqətini dərk etmək istəmədiklərindən ciddi problemlərlə üzləşir, həm də başqalarına problem yaradırlar. Məsələn, onlara elə gəlir ki, vəzifə kreslosunda oturan kimi bir gecənin içində ağılları artır, səviyyələri yüksəlir, əvvəllər sahib olmadıqları yeni qabiliyyətləri "üzə" çıxır. Ətrafdakılar müticəsinə təzim etdikcə, yaltaqlar saxta təriflər yağdırdıqca onlar özlərində qeyri-adi keyfiyyətlər "kəşf" etməyə başlayırlar. Hətta bəzilərində ədəbi istedad da fontan vurmağa başlayır".* Nəhayət, sonda vəzifənin dəyişdiyi insanın təbiətindəki eybəcərlik gözlərimiz önündə canlanır. İstər-istəməz hansı mühitdə yaşadığımızı və bizi ruhən əzən gücün nəmaaşından kəsib tələbənin təqaüdünü semestr boyu versinlər.

Burada iki müdrikin obrazı verilib. Bu adamların olduğu mühit qısır ola bilməz. Belə insanların mənəvi varisləri bu gün də var və əslində həyat elə bu cür varislərin çiynində dayanıb.

Müəllif hekayənin sonunda o vaxt rektorun qəbulunda olan universitet qəzetinin gənc müxbirinin şahidliyi ilə baş vermiş bu olayı onun xatirəsindən yazıya alıb. Və hekayənin sonunda müəllif qeyd edir ki, həmin gənc müxbir sonralar Azərbaycan mətbuatının patriarxına çevrilmiş Şirməmməd Hüseynov olub.

Müəllif bu hekayənin adını təsadüfi olaraq *"Köhnə kişilər haqqında hekayət"* adlandırmır. Həm də bu cazibəli, sehirli ovqat yaradan köhnə kişilər ifadəsi ilə insanların yaddaşına təsir etmək istəyir. Və hekayətini həmin zamanın acılığını yada salmaqla bitirir: *"Bu əhvalatın baş verdiyi 40-cı illərin sonlarında bütün ölkədə, o cümlədən Bakıda iqtisadi vəziyyət çox ağır idi. Müharibədən sonra dolanışıq xeyli çətinləşmişdi, aclıq təhlükəsi Damokl qılıncı kimi başlar üzərində yellənirdi, amma buna baxmayaraq ləyaqətli adamlar nə qanunu pozur, nə də mənəvi sədləri keçirdi..."*. Bəli, köhnə kişilərintəbiətlərində neqativ cizgilər yox idi, hətta olsaydı belə, bu neqativlər güc kəsb edib şəxsiyyətə qalib gələ bilmirdi. Şəxsiyyət daha üstün, daha uca olduğunu təsdiq edir. Və həmişə özünü qorumaq gücündədir.

# 4. TƏZADLAR: SƏRVƏT HƏRİSLİYİ VƏ LƏYAQƏT UCALIĞI

***Televiziya insanın təkcə zahirini göstərmir, insanın bütün niyyətini, düşüncəsini, enerjisini, əxlaqını, milli ovqatını - iç dünyasını tamaşaçıya təqdim edir. Qulu müəllim həyatın bütün çətinliklərindən, o cümlədən televiziyanın rentgen sınağından çox uğurla keçib. Bu təqdimat deyil, tamaşaçının Qulu müəllimlə bağlı o vaxtkı təəssüratlarından bir məqamdır. Ağrı-acılarla dolu, kövrəldici, bənzərsiz nitqi, səs tonu var Qulu müəllimin! Analitik təfəkkürünün diktəsi ilə barmaqları həmişə cəmiyyəti narahat edən problemlərin nəbzi üzərində olub.***

**Şahlar GÖYTÜRK, filologiya üzrə fəlsəfə doktoru**

Qulu Məhərrəmli kifayət qədər elmi hazırlığı və yüksək yaradıcılıq enerjisinin daşıyıcısı olduğu kimi, Ayzek Azimovdan fərqli olaraq həm də dünyanı yaxşı gəzmiş, fərqli sistemləri öyrənmiş, ən müxtəlif həyat səviyyəsi olan xalqları, tayfaları, qəbilələri müşahidə edə bilmişdir. Bütün bunlar ona imkan verir ki, Azərbaycan mənəvi mühitini kompüterin arxasına əyləşəndə düşüncələrini yazdığı sətirlərin arasından həyatı bütün təzadları ilə görə bilsin.

Geniş dünyagörüşü, fəhm, müqayisə imkanı fikirlərini sərrast ifadə üçün ona qol-qanad verir. Yazıda işləmək istədiyi ideyanı müşahidə etdiyi, xarici ölkələrin həyatından aldığı hadisələrlə ülgüyə çəkir, müqayisələrlə fikirlərini yaddaşa yazılacaq tərzdə yazıya gətirə bilir.

*"Vəzifəm mənim sərvətimdir"* (08.07.2017) məqaləsinin əsas canı bundan ibarətdir ki, məhz bu səbəbdən, yəni vəzifəni sərvət hesab etdiyindən hər kəs, özünün dediyi kimi, bu sərvətə doğru can atır.

Bu yazıda müəllif Vaxtan Kikabidzeni yada salır. Onun bir zamanlar oxuduğu lirik mahnının əsas mahiyyəti bu misralarda görünürdü: *"Ötən illərim mənim sərvətim, var-dövlətimdir"*. Necə gözəldir?! Yəni, ömür elə yaşanmalıdır ki, qocalıq qapını kəsəndə yaşamış olduğun həyatın mənəvi üstünlükləri səni ruhən ölməyə qoymasın. Müqəddəs duyğuların təsiri altında həyat eşqinlə birgə yaşamaq imkanından zövq alasan. Müəllif yazır: *"Mən əminəm ki, babat musiqi zövqü olan tipik azərbaycanlı məmur da bu mahnını yaddaşında yaxşı saxlayıb, ən azı "var-dövlət" söhbətinə görə. Hətta ola bilsin ki, bizim məmur kefi kök olanda bu mahnını zümzümə də edir. Amma burası var ki, Azərbaycan kimi yerdə məmur deyilən adamın kefi heç də həmişə yaxşı olmur, xüsusən mətbuat burnunu ora-bura soxub onların oğurluğa bağlı gizlinlərini aşkara çıxarıb tənqid edəndə, sosial şəbəkələr elə hey qabırğalarına döşəyəndə. Büdcə oğurluğu, vəzifədən sui-istifadə, dövlət vəsaitinə kəm baxma, saxtakarlıq, rüşvətxorluq bizim əksər məmurların hamının bildiyi o "gizlin" işlərindəndir"*. Təəssüf ki, müəllifin sadaladığı bu neqativlər az qala bizim həyatımız üçün normaya çevrilib. *"İri çəkili"* məmurların mühafizə sistemi var. Qulu Məhərrəmli demiş, bu, *"vəzifə"* adlı sehirli və zirehli bir istehkamdır.

dən ibarət olduğunu aydın dərk edə bilirik, əslində müəllifin məqsədi də bu həqiqəti insanlara çatdırmaqdır..

Yazıçı-publisist təcrübəli qələm əhli kimi oxucunu ancaq bir müstəvi üzərində saxlamır. Onun ümidini neqativlərlə məhv etmir. Yeri gəldikcə, həyatın üstün tərəflərini də yazıya gətirir. Bununla da həyatın yaşamaq məkanı olduğunu, gələcəyə inamın qorunmasını da təmin edir.

*"Köhnə kişilər haqqında hekayət"* (26.07.1017) əsərinin iki əsas qəhrəmanı var. Əlbəttə, birinci qəhrəman ölkə içi boyu şöhrəti yayılmış və bu gün də hələ unudulmayan müdriklər müdriki, şərqşünas Muxtar Əfəndidir.

Muxtar Əfəndi parlament üzvü olub. Cümhuriyyət dövrünün fikir adamlarından olsa da, nadir ixtisas olduğuna görə repressiyadan sovuşa bilib. Onun kimsənin oxuya bilmədiyi əlyazmaları üzə çıxarmasında, şərqşünaslıq tədqiqatlarının aparılmasında, yeni şərqşünaslar nəslinin yetişməsində əvəzsiz xidmətləri olub.

Hekayətin ikinci qəhrəmanı müharibədən az sonrakı dövrdə BDU-nun rektoru olmuş Abdulla Qarayevdir.

Bir gün Muxtar Əfəndi Abdulla Qarayevin qəbuluna gəlir. Akademik (o vaxt 35 yaşı olub) ayağa durub Muxtar Əfəndini gözləmə otağında qarşılayıb içəri gətirir. Hal-əhvaldan sonra onun nə məqsədlə gəldiyini soruşur. Muxtar Əfəndi bildirir ki, qızının təqaüdü kəsilib, bunun düzəlməsini istəyir. Rektor telefonu götürüb mühasibatlıqla əlaqə saxlayır. Məlum olur ki, tələbənin bir fəndən "üç" qiyməti var, ona görə də təqaüddən kəsilib. Rektor Abdulla Qarayev tələbənin qiymətini düzəltmək üçün hansı müəllimdən "üç" aldığını soruşanda məlum olur ki, tələbə öz atasından, yəni Muxtar Əfəndidən "üç" alıb. Rektorun qiyməti düzəltmək üçün ona müraciət etdiyini hiss edəndə, Muxtar Əfəndi ayağa qalxır: *"Mən ona "üç"dən artıq qiymət yaza bilmərəm, çünki biliyi o qədərdir"*. Abdulla Qarayev sözü çevirmir, mühasibata tapşırır ki, özünün

*"Üç epizodda insan mənzərəsi"* (03.10.1019). Bu yazıda da müəllif həyatın daha yaşarı olduğunu, insanlığın mənən uca olan insanlar sayəsində qorunduğunu göstərir. Bu yazının da diqqətə çəkilməli qəhrəmanları var. Müəllifin yaxşı tanıdığı bağban Sahib kişinin çətinə düşəndə sonuncu ümidi kimi saxladığı 5 manatından keçə bilməklə mərdliyinə sahibliyini təqdir edir. Sadəcə təqdir etmir, bunu ali keyfiyyət kimi diqqətə çatdırır. İkinci epizodda ölümlə çarpışan uşağı xilas etmək üçün bir gəncin 30 min dolları yardım üçün göndərdiyini bildirir. Burada başlıca təqdir olunan cəhət odur ki, həmin gənc heç adını da bildirmir. Kimliyinin aşkarlanmasına da ehtiyac görmür. Üçüncü epizodun qəhrəmanı həkimdir. Özü kasıb həyat yaşasa da xəstə qocanı müayinə edib müalicə yazır, xəstənin sağalması üçün şəfa diləyir. Ayrılıb gedəndə qoca, xəstə atanın oğlunu vermək istədiyi 20 manatdan imtina edir. Halbuki, həmin 20 manata həmin həkimin çox ehtiyacı vardı. Həmin həkim çox şey itirmişdi. Və bunu da etiraf edir. Amma əlavə edir ki, ləyaqətimizi ki itirməmişik. Müəllif sonluqda özünə xas nəzəri mühakimələrlə mətni axıra çatdırır: *"Ləyaqət isə mücərrəd anlayış deyil. Nəfsə hakim olmaq, bu davranışın verdiyi həzzi yaşamaq, maddiyyat qarşısında əyilməmək, gözütoxluq da ləyaqətdəndir. Bu, insanlıq mənzərəsinin xoş duyğular yaradan bir cizgisidir. Və bu cizgiləri qabardan epizodların çox olması yaşadığımız cəmiyyətin sağlam ürək döyüntülərinin hələ də eşidilməsi deməkdir..."*. Burada Asif Ata yada düşür. O deyirdi ki, mən yanar zəkanı tərənnüm edirəm.

Qulu Məhərrəmli həyata yaşarlıq bəxş edən insanlığı tərənnüm edir.

21.09.2021